Ədalət.- 2020.- 10 oktyabr. S. 14.



*Fəxrəddin Teyyub*

# ÇAĞIRIB APARIN CƏBHƏYƏ MƏNİ

*Göstərib yağıya əsgər yerini,*
*Axır ki, silaha sarıldı, Şükür!*
*Ali Baş Komandan verdi Əmrini,*
*Neçə düşmən bağrı yarıldı, Şükür!*

*Var-dövlət duyğusu qəlbimə axmır,*
*Gözlərim qamaşmaz inci görəndə,*
*Ürəyim sevincdən sinəmə sığmır,*
*Döyüşə yollanan gənci görəndə.*

*Düşmənin arzusu gözündə sönüb,*
*Aparar sonadək hər mərd savaşı.*
*Hamının qəlbində bayrama dönüb,*
*Bu Vətən savaşı, bu yurd savaşı.*

*Gülləni yağıya sıxan adamam,*
*Qovmuşam yolumdan dumanı, çəni.*
*Mən oddan, alovdan çıxan adamam,*
*Görmüşəm qırğını, müharibəni.*

*Sözümü hər yerdə deyən diləm mən,*
*Bitməz yad kəlməsi dilimin üsttə.*
*Quş kimi azadam, müstəqiləm mən,*
*Kimdi əlin qoyan əlimin üstə?*

*Yenə ön sırada, yenə başdayam,*
*Oğul istəyirəm, bir əyə məni,*
*Nə olsun yaşlıyam, ahıl yaşdayam,*
*Çağırıb aparın cəbhəyə məni.*

*Şəhid anasının göydədir ahı,*
*Yaraşmır heç kəsə gülmək, ey Vətən!*
*Səslər hər igidi Tanrı dərgahı,*
*Şərəfdir səngərdə ölmək, ey Vətən!*

*Qələbə boylanır bayrağımızdan,*
*Əsgərin qoluna güc, təpər gəlir.*
*Yağılar qovulur torpağımızdan,*
*Şad xəbər dalınca, şad xəbər gəlir.*

*Yer yox nə şöhrətə, nə də ki, ada,*
*Qarabağ məlhəmi ürəyin, canın.*
*Heykəli qoyular, kimsə Şuşada,*
*Sancsa bayrağını Azərbaycanın!*